# COP29-da "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksəksəviyyəli cənub-cənub siyasi dialoqu" mövzusunda tədbir keçirilir

**Bakının evsahibliyi etdiyi COP29 çərçivəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Beynəlxalq Əmək Təşkilatının (BƏT) təşkilatçılığı ilə "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksəksəviyyəli cənub-cənub siyasi dialoqu" tədbiri başlayıb.**

AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək tədbirin gündəliyinə "yaşıl iqtisadiyyat"a əmək bazarında ədalətli keçid üçün hamıya layiqli "yaşıl iş yerləri"nin inkişafının, dairəvi iqtisadiyyat yanaşmalarının təşviqi, bu sahədə təcrübə mübadilələrinin aparılması, Beynəlxalq Əmək Təşkilatının Təlimatlarının tətbiqi məsələlərinin müzakirəsi daxildir.

Müxtəlif ölkələrdən, BMT-dən və digər beynəlxalq təşkilatlardan yüksəksəviyyəli rəsmilərin iştirak etdiyi tədbirdə Şərqdə əmək münasibətləri üzrə ilk kollektiv müqavilə olan "Mazut Konstitusiyası"nın 120 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması və təsirinin azaldılmasının yalnız birgə səylərlə mümkün olacağını bildirib. Nazir "yaşıl iqtisadiyyat"a keçid dövründə əmək bazarı ilə bağlı çağırışlara uyğun olaraq ölkəmizdə görülən tədbirləri, həmçinin sosial müdafiə sisteminin gücləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. Dövlət sosial xidmətlərinin keyfiyyətinin daha da artırılması üçün nazirliyin xidmət sahələrində rəqəmsal həllərdən və süni intellektin üstünlüklərindən istifadə edildiyini, 160 xidmətin 90 faizindən çoxunun rəqəmsallaşdırıldığını qeyd edib.

Həmçinin e-sosial portalının, "Əmək və Məşğulluq" altsisteminin və digər rəqəmsal alətlərin önəmini, rəqəmsal transformasiyanın sosial islahatların uğuru üçün vacibliyini və sosial müdafiə sisteminin daha çevik və dayanıqlı olmasına imkan verdiyini bildirib. O, Azərbaycanda aparılan sosial islahatları, təkcə son 6 ildə ölkədə 4 milyon insanı əhatə edən 4 sosial islahat paketinin icra edildiyini vurğulayıb. Qeyd edilən dövrdə 624 min işsiz və işaxtaran şəxsin münasib işlərlə təmin edildiyini, 35 min şəxsin peşə hazırlığına, 2700-dən çox insanın əməkhaqqının birgə maliyyələşdirmə proqramına, 92 min şəxsin özünüməşğulluq proqramına cəlb olunduğunu bildirib.




S.Babayev sosial-iqtisadi inkişaf və inklüziv cəmiyyətin formalaşması və ekoloji təmiz gələcəyin qurulmasında əməkdaşlıq, anlaşma və birgə səylərin tələb olunduğunu vurğulayıb.

Həmçinin BMT İnkişaf Proqramının Baş katibinin köməkçisi, Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto, BƏT-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Beate Andres, BMT Avropa İqtisadi Komissiyasının icra katibinin müavini, BMT-nin Avropa və Mərkəzi Asiya Ətraf Mühit və İqlim Dəyişikliyi Problemləri üzrə Koalisiyasının həmsədri Dmitri Mariyasin, BMT-nin İqlim Dəyişikliyi Təsirlərinin Azaldılması Departamentinin rəhbəri Ceyms Qrabert, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibinin müavini Erik Manzi, Beynəlxalq İşəgötürənlər Təşkilatının Asiya ölkələri üzrə vitse-prezidenti Sonya Janahinin çıxışları dinlənilib. Onlar "yaşıl iş yerləri"nin inkişaf etdirilməsinin, bu istiqamətdə fəaliyyətin təşviqinin "yaşıl iqtisadiyyat"a keçid üçün vacibliyini vurğulayıblar.

Tədbir panel sessiyalarla, müvafiq sahələrdə təcrübələrin mübadiləsi ilə davam edib. Sessiyalarda BMT İnkişaf Proqramının mütəxəssisi Sanqji Li, Qırğızıstanın Əmək, Sosial Təminat və Miqrasiya Nazirliyinin şöbə müdiri Bermet Karabayeva, Mançester Universitetinin (Böyük Britaniya) professoru Yan Miles, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva, Çinin Müəssisə Konfederasiyasının icraçı vitse-prezidenti və Baş katibi Zhu Hongren, AHİK sədrinin müşaviri Fuad Ələkbərov və digərləri çıxış ediblər.

Tədbir çərçivəsində inklüziv və genderə cavab verən və ədalətli keçidi hədəfləyən iqlim tədbirlərinin inteqrasiyasına dair təşkil olunan regional "dəyirmi masa"da əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Qazaxıstanın əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini Akmadi Sarbassov, Qırğızıstanın əmək, sosial təminat və miqrasiya nazirinin birinci müavini Muhtarbek Baymurzayev, Tacikistanın əmək, miqrasiya və məşğulluq nazirinin müavini Qiyomiddin Davlatzoda, Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini Lütfihak Alpkan, Özbəkistanın məşğulluq və yoxsulluğun azaldılması nazirinin müavini Rano Turdiboeva, Serbiyanın Əmək Nazirliyinin müşaviri Jelena Vasiç, İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin baş direktoru Azər Bayramov və digərlərinin "yaşıl iqtisadiyyat"a ədalətli keçid üçün həll yolları, gender bərabərliyinə və inklüzivliyə diqqətin artırılması ilə bağlı fikirləri dinlənilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov "yaşıl iqtisadiyyat"a keçidin sürətli və uğurlu olmasının ilk növbədə biznesin dayanıqlılığından, ixtisaslı və peşəkar işçi qüvvəsinin potensialından və onun səmərəli idarə olunmasından, yeni sosial dəstək mexanizmlərinin işlənib hazırlanmasından asılı olacağını vurğulayıb.

Qeyd edək ki, "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksəksəviyyəli cənub-cənub siyasi dialoqu" noyabrın 21-də də davam edəcək.